**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**HÜSEYNOVA AFAQ BÖYÜK AĞA QIZI**

# AZƏRBAYCANIN BALET TAMAŞALARINDA SƏNƏTLƏRİN SİNTEZ PROBLEMİ

**6203.01 – " İncəsənətin nəzəriyyəsi, təhlili və tənqidi"**

**Sənətşunaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI - 2013**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunun "İncəsənətin qarşılıqlı əlaqələri" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Rəna Azər qızı Məmmədova**
Sənətşünaslıq doktoru,
Azərbaycan MEA-nın müxbir
üzvü, professor

**Rəsmi opponentlər:** **Gülnaz Abutalıb qızı Abdullazadə**
Fəlsəfə üzrə elmlər doktoru,
professor

**Ağəli Müsəllim oğlu İbrahimov**
Azərbaycan xalq rəssamı

**Aparıcı təşkilat:** **Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**

Dissertasiyanın müdafiəsi 2013-cü il iyun ayının 28-də saat _____ -də Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdindəki FD.02.091 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Az-1065, Bakı, İnşaatçılar prospekti, 9. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının iclas otağı.

Dissertasiya ilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kitabxanasında tanış olmaq olar.

**Avtoreferat "27" may 2013-cü ildə göndərilmişdir.**

**FD.02.091 – Dissertasiya Şurasının**
**elmi katibi, Pedaqogika üzrə fəlsəfə**
**doktoru, professor:** **M.C. Manafova**

## Dissertasiyanın ümumi səciyyəsi

**Tədqiqatın aktuallığı**. Müasir elmdə, xüsusilə də Azərbaycan balet tamaşasında sənətlərin sintez problemi sənətşünaslıqda aktual və tələb olunan sahələrdir. Burada son dərəcə geniş məsələlər dairəsi əhatə olunmuşdur. Ən mükəmməl balet tamaşalarında bir-birinə yaxın olan incəsənət növləri sintezdə qarşılıqlı təsir edərək tamaşanın estetik təsir effektini artırır, tamaşaçıya emosional təsirin ən yüksək nöqtəsinə çatır. Bu, musiqili dramaturgiya (musiqi), ədəbi dramaturgiya (libretto), rəqs dramaturgiyası (xoreoqrafiya), vizual oxunma (səhnə tərtibatı), vizual obrazlar (kostyumlar), obrazların ifaçı fərdlər (ifaçılar) tərəfindən oxunması, işıq həlli (işıq tərtibatı), vokal, reçitativ, baletdə tez-tez istifadə olunan üsullar, videoqrafika və s.-dir. Məhz buna görə də səhnədə baş verənlərə şərik olmaq məqsədilə tamaşaçıya emosional-psixoloji təsiri gücləndirən sintez problemlərinin tədqiqi aktualdır. Məlum olduğu kimi, balet tamaşası qəhrəmanlarının dərdinə şərik olarkən tamaşaçı emosional-psixoloji təsirə məruz qalır, beləliklə də özünü hiss-həyacan, faciəvi, yaxud komik təsirlərlə təmizləyir.

Şübhəsiz ki, bugün sənətşünaslıq bir-birinə yaxın olan elmlər kimi elə bir informasiya həddinə gəlib çatmışdır ki, bu zaman incəsənət və mədəniyyət obyektlərinin səciyyəvi sahələri bir-birilə uyğunlaşmış, bir-irinə qarışmış, tədqiqatın bir-birinə yaxın rakurslarına çevrilmiş – bir sözlə, dar ixtisaslı tədqiqatdan təbiətdə və gerçəklikdəki hadisələrin qarşılıqlı əlaqəsi orbitinə çıxmışdı. Şübhəsiz ki, təbiətdə heç bir obyekt onu əhatə edən obyektlərdən və ətraf mühitdən əlahiddə olunmuş vəziyyətdə mövcud deyil. Mühit və ətraf obyektlər amansızcasına subyektə təsir edir. Ona həmçinin Zaman da təsir edir, yəni o, tədqiq olunduğu müddətdə dəyişilməz qalmır, inkişaf edərək, çoxlu inkişaf mərhələlərindən keçir. Qeyd etmək lazımdır ki, subyektin qarşılıqlı əlaqədə və zaman kəsiyində öyrənilməsi tədqiqatın yeni sisteminə yeni yanaşma tələb edən kifayət qədər mürəkkəb bir məsələdir.

Azərbaycan balet teatrı dünya balet sənətində mühüm hadisədir. Ona görə də balet tamaşasında sənətlərin sintezi tədqiqat obyekti baxımından böyük əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, Azərbaycan xalqının ümummilli lideri H.Əliyev Azərbaycan incəsənətinin qızğın tərəfdarı idi. O, F.Əmirovun “Min bir gecə”  baleti kimi görkəmli əsərlərin meydana gəlməsi üçün hər cür şərait yaradırdı. Azərbaycan balet tamaşasının təşəkkül problemləri Azərbaycanın görkəmli alimləri tərəfindən dərindən tədqiq olunmuş, sovet və xarici ədəbiyyatda işıqlandırılmışdır. Azərbaycan baletlərindən Qara Qarayevin “Yeddi gözəl” (ilk tamaşası 1952-ci ildə

Bakıda olmuş, libretto müəllifləri Y.Slonimski, İ.Hidayətzadə, S.Rəhman, baletmeysteri Q.Qusev, rəssamları – F.Qusak, E.Almaszadə, 1953-cü il – Leninqrad Kiçik teatrı (rəssamı S.Virsaladze), Arif Məlikovun "Məhəbbət əfsanəsi" (ilk tamaşası 1961-ci ildə Leninqrad şəhərində olmuşdur, librettosu N.Hikmətin, baletmeysteri Y.Qriqoroviç, rəssamı S.Virsaladze, dirijoru Niyazidir. (1962-ci ildə Bakıda ilk tamaşası olmuşdur, ifaçılardan başqa səhnə tərkibi eyniu idi), F.Əmirovun "Min bir gecə" (ilk tamaşası 1979-cu ildə Bakı şəhərində olmuşdur, libretto müəllifləri R. və M.İbrahimbəyovlar, N.Nəzirova, rəssamı – T.Nərimanbəyov, kostyum üzrə rəssamı – T.Tahirov idi) və başqaları dünyanın ən yaxşı balet səhnələrində tamaşaya qoyulmuşdur (dəfələrlə Moskvada Böyük teatrın, S.M.Kirov adına Leninqrad opera və balet teatrının səhnəsində, keçmiş Sovet İttifaqının, Fransanın, İngiltərə, Yaponiya, Avstriya, Yuqoslaviya, Türkiyə və Misirin ən yaxşı dünya səhnələrində).

Azərbaycan balet sənətinin belə parlaq uğurunun mənbələrini müəyyən edərkən Azərbaycanda (və bütün Şərqdə) ilk milli professional balet tamaşası olan Əfrasiyab Bədəlbəylinin 1940-cı il aprelin 18-də səhnələşdirilmiş və indiyə qədər (artıq 73 ildir) Azərbaycan Dövlət opera və balet teatrının səhnəsində yeniləşdirilmiş redaksiyada gedən "Qız qalası" baletinin yaradıldığı vaxta qayıdırıq. Ilk Azərbaycan baletlərindən başlayaraq, balet tamaşalarının təbiəti, klassik xoreoqrafiya və milli rəqs plastikası, bəstəkarlıq məktəbinin zənginliyi o qədər ahəngdar sürətdə qaynayıb qarışmışdır ki, üslubca tamamilə fərqli, ancaq ifaca maraqlı Azərbaycan baletlərinin: Ə.Bədəlbəylinin "Qız qalası", S.Hacıbəyovun "Gülşən", Ə.Abbasovun "Qaraca qız", Q.Qarayevin "Yeddi gözəl", A.Məlikovun "Məhəbbət əfsanəsi" və s. baletlərin yaradılmasına səbəb olmuşdur.

Əlbəttə ki, Azərbaycan balet teatrı kimi ahəngdar bir hadisənin təbiətini anlamaq maraqlı olardı. Azərbaycanın xalq artisti, SSRİ Dövlət mükafatı laureatı Tamilla Şirəliyevanın qeyd etdiyi kimi, ittifaq respublikalarında milli professional balet tamaşalarının təşəkkülü mərhələsi dövrünə təsadüf edən Sovet İttifaqının mövcud olduğu vaxt ərzində nadir hallarda respublikalar ümümdünya səviyyədə milli balet tamaşası səhnələşdirə bilirdilər. Azərbaycan milli baleti isə ən yüksək dünya səviyyəli, dünyanın ən yaxşı səhnələrində uzunömürlü olmuş 5-6 balet yaratmışdır. Bildiyimiz kimi, balet teatrında sənətlərin qarşılıqlı təsiri bir-birinə yaxın olan incəsənət növlərinin bir tam şəklində birləşməsinə cəhd kimi səciyyələnir. Bu, bizə baleti incəsənətin məkan-zaman və görmə-eşitmə növlərinin sintezi kimi nəzərdən keçirməyə imkan verir. Incəsənətin

dramaturgiya, musiqi, xoreoqrafiya, səhnə tərtibatı kimi öz-özündən bəhrələnən, tükənməz dərəcədə ifadəli və inkişaf etmiş qarşılıqlı münasibətlərinin mürəkkəbliyi sənətşünaslardan ciddi “dar ixtisaslı” tədqiqat dairəsi tələb edirdi. Bizim qarşımızda isə tədqiqatın bir qədər fərqli rakursu durur: biz Azərbaycan professional balet tamaşasını (onun dünya balet teatrında daha əhəmiyyətli və qiymətli quruluşlarını) onun genezisi, Azərbaycan incəsənətinin yaradıcı mahiyyətinin təşəkkülünə təsir etmiş daxili mental vibrasiyasının mənbələrini aşkara çıxarmaq, qarşılıqlı əlaqə, qarşılıqlı təsir və formalaşma, ssenarı dramaturgiyası, musiqi, xoreoqrafiya, səhnə tərtibatı (ayinlər, kostyumlar, milli plastika, mental psixo-genetik kodlama və s.) – onu təşkil edən bütün çoxsəsli palitra nöqteyi-nəzərindən gözdən keçiririk. Balet tamaşasının tərkib hissələrinin mükəmməlliyinə nail olmağa imkan yaradan qeydsiz-şərtsiz ayrılmazlığının nümunələrini nəzərdən keçirək. Bizə maraqlıdır ki, bu parlaq balet tamaşalarının müştərək müəllifləri hansı yaradıcılıq ehtiyatlarını, onların balet tamaşası kimi mürəkkəb orqanizmin sintezində qarşılıqlı təsiri və yaradıcılıq mexanizmini işə salmış və aşkara çıxarmışlar. Məlum olduğu kimi, hələ Skryabin Vaqnerin sənətlərin “riyazi” sintezini inkişaf etdirərək “misterik” sintezə çevirmişdir, burada sənətlərin sintezi “miqdar” qanunauyğunluğuna deyil, keyfiyyət xüsusiyyətlərinə təsir göstərir.[1]

Şübhəsiz ki, müasir bəstəkarlar, xoreoqraflar, səhnə tərtibatçıları öz sələflərinin uğurlu təcrübəsini öyrənir və yaradıcılıqlarında istifadə edirlər. Ancaq biz hələ dərin təhlil və qaneedici nəzəri-təcrübi nəticələr alındığını müşahidə etmirik. Hazırda üç Azərbaycan baleti dünya şöhrəti qazanmışdır, ancaq digər Azərbaycan baletləri də keçmiş Sovet İttifaqında və dünya səhnələrində tamaşaya qoyulmuşdur: Q.Qarayevin “İldırımlı yollarla” (xoreoqrafı K.Sergeyev, Leninqrad Mariinski teatrında, məşhur rəqqaslar Dudinskaya və K.Sergeyevin ifasında), N.Əliverdibəyovun “Muğam” xoreoqrafik freskası (Böyük teatr, Moskva, ifaçılar – parlaq rəqqaslar Yekaterina Maksimova və Vasili Vasilyev), P.Bülbüloğlunun “Eşq və Ölüm” baleti (Yekaterinburq opera və balet teatrı – 2009) və b. Q.Qarayevin “Yeddi gözəl” (xoreoqrafı P.Qusevdir), A.Məlikovun “Məhəbbət əfsanəsi” (xoreoqrafı Y.Qriqoroviçdir), F.Əmirovun “Min bir gecə” (xoreoqrafı N.Nəzirovadır) balet tamaşaları ənənələrin yaradılmasının, dünya balet teatrında Azərbaycan balet teatrı kimi bir hadisənin təşəkkülünün əsasını təşkil etmiş, dünya balet sənəti tarixində

[1] Мазаев А.И. Проблемы синтеза искусств в эстетике русского символизма. – М.: Наука, 1992, с. 203.

mühüm rol oynamışlar. Dissertasiya işində biz həm də fikrimizcə Azərbaycan balet teatrının təşəkkülündə mühüm olan digər balet tamaşalarını – yalnız Azərbaycanda deyil, bütün Şərqdə ilk professional balet tamaşası olan Ə.Bədəlbəylinin "Qız qalası"(rejissoru İ.Hidayətzadədir), N.Əliverdibəyovun "Muğam" simfonik muğam freskasını (xoreoqrafları R.Axundova və M.Məmmədovdur), Niyazının "Rast" simfonik muğam baletini (xoreoqrafı T.Şirəliyevadır), Polad Bülbüloğlunun "Eşq və Ölüm" baletini (xoreoqrafı V.Usmanovdur) və b. nəzərdən keçiririk. Bu balet tamaşalarının tədqiqinin mürəkkəbliyi ondadır ki, onların əksəriyyətinin bir neçə səhnə quruluşu, və yaxud redaksiyası var: Ə.Bədəlbəylinin "Qız qalası" baletinin 4 redaksiyası, ilk tamaşası əvvəl 1952-ci ildə Bakıda, sonra isə Leninqrad Dövlət Kiçik opera teatrında 1953-cü oldə olmuş Q.Qarayevin "Yeddi gözəl" baletinin ən yaxşı dünya səhnələrində (Amerika, Yuqoslaviya, Tehran, Rusiya səhnələrində) 20 tamaşası, A.Məlikovun "Məhəbbət əfsanəsi" baletinin bəstəkarın sözlərinə görə ən nüfuzlu dünya səhnələrində 60-dan artıq tamamilə müxtəlif tamaşaları, F.Əmirovun "Min bir gecə" baletinin dünya səhnələrində (o cümlədən Qahirə səhnəsində) 30-dan artıq tamaşası olmuşdur. N.Əliverdibəyovun "Muğam" baletini 1972-ci ildə Moskvada II Dünya müsabiqəsində son dərəcə heyrətləndirici uğurundan sonra (ifaçılar T.Şirəliyeva və V.Pletnyovdur) 1974-cü ildə Paris müasir rəqs beynəlxalq müsabiqəsində Böyük teatrın görkəmli solistləri V.Vasilyev və Y.Maksimova ifa etmişlər. Biz ilk tamaşalara üstünlük veririk, çünki məhz onlar sonrakı yeni variantların yaranmasına səbəb olmuşlar və müəyyən baletin sonrakı quruluşları ilə və əgər mümkünsə, digər tamaşalarla müqayisəli təhlil aparırıq. Biz bu tamaşaların yaranmasının əsasını, "mayasını" təşkil edən başlıca, konstruktiv xüsusiyyətlər üzərində dayanmağa cəhd etmişik.

Beləliklə, Azərbaycan professional balet tamaşasının əzəmətli inkişafına baxmayaraq, ona hələ də teatr sənətinin, incəsənətin bir-birinə yaxın növlərinin qarşılıqlı əlaqələrinin, Azərbaycan incəsənətinin inkişafı tarixində yaxşı nə varsa özündə ehtiva edən və sənətşünaslıq tədqiqatları üçün zəngin material olan bir sintez obyekti kimi lazımi diqqət yetirilməmişdir. Görkəmli baletlərimizin Azərbaycan balet tamaşasında sənətlərin sintezi kimi tədqiqat aktuallığı açıq-aşkardır, belə ki, bu mövzu üzrə az öyrənilmiş sənətşünaslıq sahəsində ilk tədqiqatdır.

**Problemin işlənilmə dərəcəsi.**

Bu mövzunun tədqiqinin müxtəlif aspektləri Azərbaycanın qədim və orta əsr incəsənətinin inkişaf tarixi üzrə (N.İ.Rzayev, A.Mets, Ş.H.Quliyeva, S.Tağıyeva və s.), 19-cu əsrin sonu – 20-ci əsrin əvvəllərinin Azərbaycan teatr sənətinin inkişaf tarixi üzrə (Ü.Hacıbəyov, A.H.Sarabski, R.A.Məmmədova və s.), Azərbaycan balet sənəti inkişafının sovet dövrü üzrə arxiv mətbuat orqanlarında, monoqrafiyalarda (Q.A.Qasımov, H.Qaşqay, N.Rəhimbəyli, Y.Paşayeva, R.Fərhadova, L.Şıxlinskaya, L.Karaqiçeva, B.Lvov-Anoxin, R.Elyaş və b.), sənətlərin sintezi üzrə fundamental əsərlər (Y.Nazaykinski, V.Meduşevski, A.Mazayev, A.Soxor, A.Zankova, L.Mazel və b.) sənətlərin sintezinin müxtəlif aspektlərini – sənətlərin sintezi sistemində musiqi (Ş.Arxaft və b.), balet tamaşasının dramaturgiyası və onun xoreoqrafiyası (V.Vanslov və b.), balet librettosu və xoreoqrafiyası (Y.Slonimski), səhnə tərtibatı (V.İ.Berezkin) və b. əsərlərdə, məqalə və tədqiqatlarda öz əksini tapmışdır. Qeyd etmək lazımdır ki, Azərbaycan sənətşünaslarının əsərlərinin əksəriyyətində balet tamaşasının musiqili dramaturgiyasına əsas diqqət yetirilirdi, sintezləşdirilmiş teatr sənətinin digər tərkib hissələri bir qədər ümumi göstərilirdi. Rus sənətşünasları isə musiqi və baletin (Astaxova O.L., A.Zankova, V.Xolopova), balet və səhnə tərtibatının (Y,Slonimski, V.Krasovskaya, P.Karp, B.Lvov-Anoxin və b.), musiqi və səhnə tərtibatının (Vanslov V. və s.) sintezini yaxşı təhlil etmiş və sistemləşdirmişlər.

**Tədqiqatın obyekti və mövzusu.** Ə.Bədəlbəylinin “Qız qalası”, Q.Qarayevin “Yeddi gözəl”, A.Məlikovun “Məhəbbət əfsanəsi”, F.Əmirovun “Min bir gecə” və b. Azərbaycan balet tamaşaları **tədqiqatın obyektidir**. Genezis, Azərbaycan milli professional baletinin, onun başlıca tərkib hissələrinin təkamül mənbələri, qarşılıqlı təsir və formalaşma, ssenari dramaturgiyası, musiqi, xoreoqrafiya, səhnə tərtibatı (mərasimlər, kostyumlar, milli plastika, mental psixo-genetik kodlaşma) sintezinin aspektləri **tədqiqatın mövzusudur.**

**Işin məqsədi və vəzifələri**. Bu işin məqsədi Azərbaycan incəsənətinin yaradıcı mahiyyətinin təşəkkülünə təsir etmiş mənbələrin, sintezin təhlili, balet tamaşasının tərkib hissələri olan ssenari dramaturgiyası, musiqili leksika, xoreoqrafik plastika, səhnə işləri, geyim və s. qarşılıqlı təsirini, ən yaxşı Azərbaycan balet nümunələrində bütöv sintezləşdirilmiş balet tamaşasının formalaşmasını aşkara çıxarmaqdır. Q.Qarayevin “Yeddi gözəl”, A.Məlikovun “Məhəbbət əfsanəsi”, F.Əmirovun “Min bir gecə” kimi baletlərin uğurunun əsası onların tərkib

hissələri olan ssenari, musiqi, xoreoqrafiya, səhnə tərtibatı və s. sintezində qoyulmuşdur.

**Vəzifələr:**

1. Balet tamaşasında sənətlərin sintezi barədə elmi təsəvvürləri səciyyələndirmək.
2. Azərbaycan baletinin tarixi əhəmiyyətini incəsənətdə sintez problemlərinin həlli nöqteyi-nəzərindən göstərmək.
3. Azərbaycan balet tamaşasında sənətlərin sintez formalarını öyrənmək (növlər arasındakı əlaqələr).
4. Sənətlərin sintezinin struktur əsaslarını tədqiq etmək. Ümumi funksional səbəblər.
5. Balet tamaşasının sənətlər sintezində musiqinin təsirini və üstünlüyünü göstərmək.

**Elmi yeniliyi.** Təqdim olunmuş işdə ilk dəfə olaraq Azərbaycan incəsənətinin, xüsusilə də rəqs sənətinin nəzəri mahiyyətinin təşəkkülünə təsir etmiş daxili mental vibrasiyaların mənbələrini üzə çıxarmağa, görkəmli Azərbaycan baletləri nümunəsində Azərbaycan balet tamaşasında sənətlərin sintezini təhlil etməyə cəhd olunmuşdur.

Balet tamaşası mövzusu sənətlərin sintezi kimi Azərbaycan sənətşünaslığında xüsusi olaraq təhlil edilməmişdir. Ancaq 40-80-cı illərin Azərbaycan balet tamaşalarının musiqili dramaturgiyası (H.Qaşqay, R.Fərhadova və b.), onun inkişaf tarixi (L.Şıxlinskaya və b.) nöqteyi-nəzərindən gözəl elmi tədqiqatlarını qeyd etmək lazımdır. Təəssüf ki, 20-ci əsrin 90-cı və əsrimizin 10-cu illərində Azərbaycan balet tamaşasının inkişafı fundamental sənətşünaslıq ədəbiyyatında kifayət qədər işıqlandırılmamışdır. Ona görə də bu yaxınlarda S.Səmədovun SSRİ Xalq artisti Azərbaycanın görkəmli balerinası Leyla Vəkilovanın yaradıcılığı barədə və Q.Əliyevin "Bədii yaradıcılıq mədəniyyətlərin qarşılıqlı təsiri kontekstində: Azərbaycanın xoreoqrafiya sənəti materialı əsasında" mövzusunda müdafiə etdikləri dissertasiya işləri şübhəsiz ki, vaxtında görülmüş işlərdir. Görkəmli Azərbaycan balet tamaşaları nümunəsində sənətlərin qarşılıqlı təsir sintezini təhlil edərək, biz aşkara çıxarmışıq ki, balet tamaşasının uğurunun əsasını nə qoymuşdur və bu, tədqiqat işi üçün zəngin materialdır.

**Tədqiqat metodları**. Azərbaycan balet tamaşasında sənətlərin qarşılıqlı təsiri və sintezinin kompleks öyrənilməsi bu işdə tədqiqat metodu kimi müqayisəli təhlil metodunu nəzərdə tutur. Tədqiqatın metodoloji əsasları həmçinin həllinə fəlsəfi, struktur-funksional və tarixi-sosial

yanaşmanın vəhdəti ilə səciyyələnir. Elmi bilik, hadisə və amillərin sintezinin qavranılmasının müasir forması kimi sistemli tədqiqatlar sahəsini təşkil edən sistemli yanaşma və sistemli təhlil metodoloji bazadır. Bu tədqiqatın işlənib hazırlanması gedişində zərurət yaranarkən bu mövzunun açılmasına imkan verən müvafiq nəzəri və təcrübi metodikadan istifadə olunmuşdur.

**Tədqiqatın mənbələri.** Biz görülmüş işlərə əsaslanaraq, Azərbaycan, rus və Avropa sənətşünaslarının baletdə sənətlərin sintezi məsələlərindəki tədqiqatlarından istifadə edərək, onları Azərbaycan baletlərinin təhlilində tətbiq etməyə çalışmışıq. Əlbəttə, biz işimizdə nəzərdə keçirdiyimiz Opera və balet teatrının və H.Əliyev adına sarayın səhnələrində nümayiş etdirilən balet tamaşalarına dəfələrlə baxmışıq. Və nəhayət, Azərbaycan baletlərinin tamaşaya qoyulmasında bilavasitə itirak etmiş mədəniyyət və incəsənət xadimlərinin şifahi fikirləri bu mövzuda qiymətli informasiya vermişdir. Bizim çox hörmətli korifeylərimiz, “Qız qalası” baletində Gülyanaq rolunun ilk ifaçısı, sonralar M.F.Axundov adına opera və balet teatrının baş baletmeysteri, SSRİ xalq artisti, SSRİ Dövlət mükafatı laureatı Qəmər Almaszadə, SSRİ xalq artisti bəstəkar Arif Məlikov, teatrda 55 il ərzində işləmiş teatrın rəssamı, Azərbaycanın əməkdar rəssamı Ənvər Almaszadə, parlaq balerina, pedaqoq və hazırda teatrın baletmeysteri Azərbaycanın xalq artisti, SSRİ Dövlət mükafatı laureatı Tamilla Şirəliyeva, xarakterik rəqslərin təkrarolunmaz ifaçısı, nadir pedaqoq, xoreoqraf, Azərbaycan Xalq artisti Xumar Zülfuqarova, parlaq teatr rəssamı, Azərbaycan Respublikasının əməkdar rəssamı Tahir Tahirov, Ə.Bədəlbəylinin “Qız qalası” baletinin son səhnə quruluşunun musiqi redaktoru, bəstəkar, Azərbaycanın xalq artisti, professor Musa Mirzəyev, Azərbaycan baletlərinin yalnız Bakı səhnəsində deyil, həm də Moskva, Leninqrad və b. səhnələrdə ilk tamaşalarını işıqlandırmış sənətşünas Svetlana Mirzəyeva və b. Kino, televiziya və internet videomateriallarından faydalanaraq, müasir dövrün görkəmli baletmeysteri Yuri Qriqoroviç, magistr-rəssam Simon Virsaladze, Moskvadakı Böyük teatrın keçmiş rəqqasları Vasili Vasilyev və Andris Liyepanın Azərbaycan balet sənəti barədə mulahizələrindən də istifadə etmişik. Bakı Xoreoqrafiya məktəbinin şagirdi kimi mən özüm M.F.Axundov adına Opera və Balet teatrının tamaşalarında iştirak etmiş və onların daimi uğurunun şahidi olmuşam.

**Təcrübi dəyəri.** Bu işin nəticəsində aparılmış nəzəri təhlil və alınmış nəticələr yalnız sırf elmi-tədqiqat aspektində, Azərbaycanın balet tarixini Bakı xoreoqrafiya məktəbində, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin “Xoreoqrafiya” kafedrasında tədris olunması

üçün maraqlı deyil, həm də baletmeysterlər, libretto müəllifləri, bəstəkarlar, səhnə tərtibatçıları və s. üçün təcrübi əhəmiyyət kəsb edir, belə ki, baletin "uğur formulu" balet tamaşasının onu təşkil edən sənət növlərinin ahəngdar sintezində, libretto müəllifinin, bəstəkar, xoreoqraf, səhnə tərtibatçısı, geyim üzrə rəssam, parlaq ifaçılar və balet teatrının bir çox digər iştirakçılarının istedadlı yaradıcılıq qərarlarındadır.

**İşin aprobasiyası**. Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət institutunun "İncəsənətin qarşılıqlı əlaqələri" şöbəsinin geniş iclasında müzakirə olunmuşdur. Tədqiqatın əsas müddəaları beynəlxalq simpoziumlarda məruzə edilmiş, elmi məcmuələrdə çap olunmuş, əməli olaraq rəqslərdə nümayış etdirilmişdir.

**İşin quruluşu və həcmi**. Dissertasiya giriş, üç fəsil, nəticə, ədəbiyyatın siyahısı, baletlərin librettosu, illustrasiyalar, illustrasiyaların siyahısından ibarətdir.

## Tədqiqatın qısa məzmunu.

Girişdə Azərbaycan balet tamaşasında sənətlərin sintezi mövzusunun Azərbaycan və rus sənətşünaslığında aktuallığı, yeniliyi, metodologiyası və işlənilmə dərəcəsi, dissertasiyanın məqsəd və vəzifəsi, ədəbiyyatın icmalı və bu tədqiqatın gələcək nəzəri və əməli tətbiqi üçün dəyəri öz əksini tapmışdır.

**Birinci fəsil – Azərbaycan balet teatrı tədqiqinin bəzi məsələləri**. Bu fəsil 3 paraqrafa bölünür.

***1.1. – Azərbaycan balet teatrı təşəkkülünün tarixi milli şərtlərinin xüsusiyyətləri.*** Burada mərasim, bayram və şəbihlərin Azərbaycanın teatr sənətinin inkişafına təsiri nəzərdən keçirilir, milli mentalitetin psixo-emosional, genetik xüsusiyyətləri təhlil olunur. Azərbaycan əsrlər ərzində ərazicə və siyasi cəhətdən müxtəlif imperiyaların tərkibində olduğu üçün, özü bir-birini əvəz edən dövlətlər arasında bölündüyü, hücumlara, işğallara, hərbi əməliyyatlara məruz qaldığı, dini, etiqadı dəyişdiyi üçün Azərbaycan xalqında formalaşan mədəniyyətlər, incəsənət, adət, mərasimlər bir tərəfdən, xalqın aydın ifadə olunmuş fərdiyyətini, digər tərəfdən, bir-birinə yaxın olan şərq mədəniyyətləri və incəsənəti arasında təbii əlaqə yaratmışdır. Mərasim, ayin, adət, bayramlara üzvi surətdə daxil olmuş orta əsr rəqsi xalqın təfəkkürünün tərbiyəsində güclü alət, "inzibati-təşkiledici" mühit olmuşdur.

***1.2. – Elmi anlayışda sənətlərin sintezi.*** Paraqraf bu mövzu üzrə elmi ədəbiyyatın tarixində araşdıran elmi anlayışlara həsr olunmuşdur. Burada "sənətlər sintezi"nin ("İen məktəbi romantikası – F.Şleqel və b.,

R.Vaqner) Şərq və Avropa anlamında elmi konsepsiyaları və b. nəzərdən keçirilir. Sənətlər sintezi şərhinin düzgünlüyü üçün biz “başlıca nöqtələr nəzəriyyəsinə” – nöqtələr cazibəsi uyğunluğuna əsaslanırıq. Konstruksiya ahəngdar surətdə formalaşanda və ümumi ideyaya, vahid konsepsiyaya tabe olanda “ornament” variantları mahiyyətə xələl gətirmədən “çalarları” uyğunlaşdırır. Ancaq müəyyən anda elə bir variant meydana gəlir ki, o, tamaşanın yaradılmasında ahəngdar vəhdət çalarlarına riayət edərək, lap yerinə düşür – bu da dahiyanəlikdir (A.Məlikovun “Məhəbbət əfsanəsi”, F.Əmirovun “Min bir gecə” baletləri). Hər bir ideyada əsas amil tənasüblərə - tamın hissələrə ahəngdar bölgüsünə əməl olunmasıdır.

***1.3. – Avropa və Azərbaycan professional balet teatrında sənətlərin sintezinin tarixi paralelləri***. Bu paraqrafda dünya və Azərbaycan baleti tarixinin, səhnə tərtibatı, musiqi, sənətlərin sintez tarixinin qısa icmalı verilir. Avropada professional balet hələ İntibah dövründə, Venesiya karnavallarından dramaturji planlı, mahnılı, rəqsli, mühəndis – səhnə effektləri olan ayrı-ayrı sintezləşdirilmiş tamaşalara keçərək yaranmışdır. Klassisizm dövründə Fransa balet sənəti inkişafının mərkəzi oldu. Burada 1661-ci ildə başda baletmeyster Boşan olmaqla Kral rəqs akademiyası açıldı. Bəstəkarlar Molyer və b. görkəmli incəsənət xadimləri onun təşəkkülündə fəal iştirak etdilər. İslahatlar, inqilabi dəyişikliklər dövründə sənətlər sintezi bu dövrdə daha mütərəqqi olan bir-birinə yaxın sənətlərin sayəsində gücləndi: klassisizm dövründə bu, librettonun (antik süjetlərin), musiqili dramaturgiyanın güclənməsi idi, yəni vizual-məkan meyarları zaman-eşitmə meyarları hesabına gücləndi. 18-ci əsrdə inkişaf etmiş Mütləqiyyət dövründə maarifçilər baleti həyata daha çox yaxınlaşdırmağı tələb edirdilər, bu isə baletdə pantomimanın inkişafına gətirib çıxardı. Inqilab dövründə Fransada baletin dramlaşdırılması baş verdi (Mariya Sale, Noverr, Qilferdinq). Yeni üslub – süjetlərin, plastik dilin demokratikləşdirilməsinə səbəb olan sentimentalizm yarandı. Böyük balet islahatçısı Noverr (18-ci əsr) yüksək məzmunlu xoreoqrafik pyesi balet hesab edirdi və “gerçək rəqs” anlayışını irəli sürmüşdü. Noverr islahatlarını öz əsəri “Rəqs barədə məktublar”da təsvir etmişdir. Noverrin şagirdi Doberval özünün “Mənasız ehtiyat” baletinə müasir həyat çarpışmaları əlavə etdi. İncəsənətdə yeni istiqamət olan romantizm 19-cu əsrin əvvəlində yarandı və baş verən burjua islahatlarından cəmiyyətin narazılığını ifadə etdi. Nağıl qəhrəmanları, romantizm dövründə yaradılmış və indi də uğurla gedən ən yaxşı balet Adanın “Jizel” baletindəki poetik obrazlar balet qəhrəmanları oldular. Balet tamaşasında personajların xarakterlərinin açılmasına daha çox yer ayrılırdı. Qadın rolları üstünlük

təşkil etməyə başladı. Tarix balerinaların “barmaqlar” üstünə qalxmasını dahi balerina – romantik baletin rəmzi Mariya Talyoninin adı ilə bağlayır. Balet librettosuna dövrün görkəmli xadimləri cəlb edilir, Teofil Qotye, Ejen Skrib və b. balet proqramları yazırlar. Dahi M.Petipa P.Çaykovskinin simfonik musiqisinə baletin şah əsərlərini yaradır. 20-ci əsrin əvvəli tarixdə dünya balet sənətində Sergey Dyagilevin “rus mövsümləri” adlanan mühüm hadisə ilə əlamətdar olmuşdur! Böyük impressario musiqi, rəsm və xoreoqrafiyanı vahid ritmdə birləşdirərək baleti bütöv və ahəngdar sənət əsərinə çevirməyə çalışırdı. “Rus mövsümləri” baletlərində sənətlər sintezinin diapazonu ahəng uyğunluğundan çoxsəsliliyə qədər idi – bu, müxtəlif üslublu konseptual prinsiplərin təcrübə laboratoriyası idi: N.Rimski-Korsakovun “Şəhrizad” (xoreoqrafı M.Fokin), İ.Stravinskinin “Müqəddəs bahar” (xoreoqrafı B.Nijinski) və b. baletlər.

20-ci illər balet tamaşaları səhnəsindəki dekorativ əsrarəngizliyi aradan qaldırdı, balet sənətinə üsyankar ruh gətirdi. F.Lopuxov (D.Şostakovişin “Bolt”, rəs. T.Bruni) baletə akrobatika və idman gətirdi, K.Qoleyzovski (“Gözəl İosif” rəs. B.Erdman) klassikanın emosional-psixoloji ifadəliliyini müasir plastika ilə bağladı və s. 20-ci əsrin 30-cu illərində realizm dövrü başladı, sovet balet səhnəsinə balet-dramlar gəldi. Onlarda tamaşanın əsasını “ədəbiyyat”, çox vaxt baletin rəqs plastikasının ziyanına pantomima ilə gücləndirilmiş, ictimai çarpışmaların realist təsviri, “qəhrəmanlıq” mövzuları və s. təşkil edirdi. Realist baletlərin belə aktuallığı tamaşa zalına yeni, seçmə incəsənətə hazırlıqlı olmayan tamaşaçının gəlməsinin nəticəsi idi. Məşhur rus xoreoqrafı R.Zaxarov K.Stanislavski sistemi prinsiplərinin sovet gerçək balet tamaşalarının (B.Astafyevin “Baxçasaray fəvvarəsi” A.Puşkin, 1934, (xor. R.Zaxarov, rəs. B.Xodaseviç), S.Prokofyevin “Romeo və Cülyetta”, 1940 (L.Lavrovski, rəs. P.Vilyams) və b.) rejissor tərtibatına təsirini qeyd edirdi. Bu baletlərin dramaturgiyasında mühüm rol əsas iştirakçı çəxsləri, səhnə situasiyasını səciyyələndirən leytmotivlərə məxsus idi. Səhnə kostyumları isə balet personajlarının milli ictimai, məişət xarakterliyini ifadə edirdi. Məhz bu dövrdə Rusiyanın “gerçək” realist baletlərinin təsiri altında ilk Azərbaycan baleti olan Ə.Bədəlbəylinin “Qız qalası” 18.05.1940 baleti yarandı (rejissoru İ.Hidayətzadə, xoreoqrafı Vronski, rəssamı F.Qusak).

**İkinci fəsil – “Azərbaycan balet tamaşalarında sənətlərin sintezi.** Ikinci fəsil 4 paraqrafa bölünür.

**2.1. – İlk professional Azərbaycan balet tamaşası olan Əfrasiyab Bədəlbəylinin “Qız qalası” baletində sənətlərin sintezinin formalaşması.**

Azərbaycan balet sənəti Azərbaycanın sintezləşdirilmiş incəsənətinin ümumteatr təşəkkülü yolunda inkişaf etmişdir və burada Azərbaycan professional balet teatrının təşəkkülündə Üzeyir Hacıbəyovun başlıca rolunu qeyd etmək lazımdır. Ü.Hacıbəyov elə şəxsiyyətlərdəndir ki, onların təsiri və rolu zəmanəsinin mənəvi həyatına və eyni zamanda ayrı-ayrılıqda incəsənətin hər bir sahəsinə yayılmışdır. Çünki onun Azərbaycan professional musiqi inkişafının təməlini qoyduğu prinsiplər incəsənətin bir-birinə çox yaxın növlərində də fəaliyyət göstərir: Azərbaycan orta əsr miniatürü müasir rəssamlar, orta əsr miniatürü müasir rəssamlar, orta əsr memarlıq prinsipləri müasir memarlar, Azərbaycanın folklor rəqs ənənələri müasir Azərbaycan rəqsi üçün və s. Bu şaqulı əlaqələr struktur qanunlarının, ümumi əsasları ilə çarnazlaşır, belə ki, mükəmməllik, ahəngdarlıq, gözəllik qanunları riyazi formulların koduna müdaxilə edir. Bu qanunlara ilk professional milli Azərbaycan baleti olan, 1940-cı ildə xoreoqrafik dram üslubunda tamaşaya qoyulmuş Ə.Bədəlbəylinin "Qız qalası" baletində riayət olunmuşdur. Burada musiqili dramaturgiyadan əlavə, balet tamaşasının rejissor tərtibatı əsas olmuşdur (rej. İ.Hidayətzadə).

Ə.Bədəlbəylinin "Qız qalası" baleti yalnız Azərbaycanda (və bütün Şərqdə) ilk professional balet tamaşası olmamışdır, o, həm də Azərbaycan balet teatrının inkişafı tarixində əsas balet olmuşdur. Azərbaycan muğamının musiqili dramaturgiyasında daxili təzad prinsipi ictimai ziddiyyətə əsaslanan və xoreoqrafik dramın ən yaxşı ənənələrində ifa olunmuş baletin hər pərdəsində kəskin dramatik həll prinsipinə çevrilmişdir. Bəstəkar Ə.Bədəlbəylinin tapdığı Azərbaycan xalq musiqisi ilə Avropa musiqisi sintezinin ahəngdar mütənasibliyi, onun "Ay, bəri bax", "Naz eləmə", "Kikican", "Bayatı-Kürd", xalq melodiyalarından istifadə etməsi, Azərbaycan folklor xalq plastikası və klassik rəqsin sonrakı redaksiyalarda baletmeyster Qəmər Almaszadə tərəfindən tapılmış sintezi, baletin gözəl işlənilmiş dramaturgiyası və İ.Hidayətzadənin bu baletdə istedadlı rejissor tərtibatı, kəskin xarakterli obrazlar və görkəmli ifaçılar – Q.Almaszadə, K.Bataşov, A.Urvantsev, L.Vəkilova, M.Məmmədov və b. gözəl ifası, rəssamlar F.Qusak, Ə.Almaszadənin səhnə tərtibatı bu baleti yaradıcılıq prinsipləri, konsepsiyalar və tapıntılar xəzinəsinə çevirmişdir. Azərbaycan baletində sənətlər sintezinin əsas prinsiplərinin təməli qoyulmuşdur. Demək olar ki, Ə.Bədəlbəylinin "Qız qalası" baletində rejissor tərtibatı o dövrün digər sovet baletlərində olduğu kimi, xoreoqrafiyanın funksiyalarından bir hissəsini "mənimsəmiş", onu mimik epizodlar, jestlər və plastika ilə əvəz etmişdir. Ancaq baletin bütün tərkib hissələri – musiqi, dramaturgiya, xoreoqrafiya, səhnə tərtibatı, kostyumlar,

işıq, ifa və s. ümumi realist, "gerçək" konsepsiyaya tabe edildiyi üçün bu balet folklor ənənələri ilə zəngin ilk parlaq Azərbaycan baleti olmuşdur.

Ona görə də bu balet artıq 73 ildir ki, uğurla Azərbaycan Opera və Balet teatrının səhnəsində gedir.

**2.2. – Q.Qarayevin "Yeddi gözəl" baletində sənətlər sintezinin bəzi cəhətləri.** 50-ci illərdə sovet baletində həm gerçək həm də divertisment, ancaq həmişə məzmunlu, qəhrəmanlara fərdi plastik xüsusiyyətlər bəxş edən baletin yeni əlamətləri meydana çıxdı. Bu baletlər F.Yarulinin "Şurale", baletmeysteri L.Yakobson (1950, Leninqrad), S.Prokofyevin "Daş çiçək", baletmeysterləri L.Lavrovski (1954, Moskva), Y.Qriqoroviç (1957, Leninqrad) və başqalarıdır. Qara Qarayevin "Yeddi gözəl" baleti də bu üslub dövründə yaranmışdır. Bu paraqrafda Q.Qarayevin "Yeddi gözəl" baletinin tamaşa və redaksiyaları təhlil olunur. Onun ilk tamaşası 1952-ci ildə Bakıda baş tutmuş, librettosu Y.Slonimski, İ.Hidayətzadə, S.Rəhmanın, baletmeysteri P.Qusev, rəssamları F.Qusak və Ə.Almaszadə olmuşdur. Dərhal 1953-cü ildə bu balet Leninqradın Kiçik teatrında (rəs. S.Virsaladze) səhnələşdirilmişdir. Balet həm Bakı, həm də xarici səhnələrdə dəfələrlə tamaşaya qoyulmuşdur. Şübhəsiz ki, bəstəkarın böyük Azərbaycan şairi və filosofu Nizaminin obrazlar dünyasının simfonik (fəlsəfi) təfsiri librettonun 40-ci illərin "gerçək" baletləri üslubundakı dramaturji təfsirini qabaqlamışdır. "Yeddi gözəl" simfonik baletdir, o, gerçək baletin öz yerini fəlsəfi ümumiləşdirilmiş süjetli baletlərə, dramaturgiyaya verdiyi, ümumiləşdirilmiş obrazlar yaratdığı (konkretdən – rəmziyə, folklordan fəlsəfəyə) dövrlər dönəmində meydana gəlmişdir. Bu balet tamaşasının sənətlər sintezində daxili ziddiyyəti bundan ibarətdir. Baxmayaraq ki, "Yeddi gözəl" baletinin librettosunun yazılmasına tanınmış Azərbaycan yazıçıları S.Rəhman və İ.Hidayətzadə ilə yanaşı, istedadlı, təcrübəli Rusiya sənətşünası və librettisti Yuri Slonimski cəlb olunmuşdu, Nizaminin dünyanın və cəmiyyətin kamilləşməsi, Bəhram şahın alicənab yetkinliyi, həyat məktəbi, Şərq sufi fəlsəfəsində sırf yeddi gözəl kimi deyil, yeddi planet, situasiya, rəng, not (muğamların), İdrak darvazaları, istiqamətlər və s. təcəssümü kimi qavranılan fəlsəfi konsepsiyası sosializm realizmi dövründə "dərk olunmamışdı". "Yeddi gözəl" obrazının daxili məzmunu elə zəngin idi ki, bəstəkar Qara Qarayev və xoreoqraf Pyotr Qusev ondan ilham alırdı – axı şair bizi dərin obraz və təsəvvürlər aləminə aparırdı. Qara Qarayevin dahiyanə musiqisi, P.Qusevin maraqlı xoreoqrafiyası (məsələn, "Yeddi gözəl kodunun Valsı"), baletin maraqlı fabulası, rəssamlar F.Qusak, Ə.Almaszadənin səhnə tərtibatında bədii təfsirlər, rəngarəng kostyumlar və görkəmli ifaçılar bu baleti tamaşaçı

qavrayışı üçün maraqlı etmişdir. Baletin bütün musiqisinə zəngin mənbə - muğam hopmuşdur. Beləliklə, Aişənin dördüncü pərdədə iztirabları "Bayatı-Şiraz" muğamı əsasında, "Aişənin buynuzla rəqsi" "Rast" məqamında, Menzerin qızla rəqsi "Cahargah məqamında", "Kəndlilərin rəqsi", "Segah məqamında, "əsnafların rəqsi" "Şur" məqamında, mərd xalq obrazı "Rast" muğamı əsasında verilmişdir. Bəstəkar aşıq musiqisindən "kəndlilərin rəqsində" istifadə etmişdir. Baletin əsas intriqası şahın xalqla, şahın yeddi gözəllə qarşı-qarşıya qoyulması deyil, şahın dünyəvi ehtiraslardan, günahlardan təmizlənməsi, tam xoşbəxtliyi dərk etməsidir. Azərbaycan səhnəsində baletin dördpərdəli gerçək baletdən ikipərdəli əsrarəngiz, zəngin tərtibatlı tamaşasına qədər müxtəlif redaksiyaları nümayiş olunmuşdur. Bizə belə gəlir ki, Qara Qarayevin "Yeddi gözəl" baletinin fəlsəfi, nəfis-intellektual təfsiri baletin son – 2009-cu il redaksiyasında öz yaradıcı təcəssümünü tapmışdır (libretto Jan Temiz, baletmeyster Vasili Medvedev, səhnə tərtibatı üzrə rəssam Dmitri Çerbaci, kostyum üzrə rəssam Tahir Tahirov, dirijor Elşad Bağırov). Nizaminin dərin fəlsəfəsinin hopduğu Q.Qarayev musiqisini, şübhəsiz ki, dünyanın ən yaxşı səhnələrində ən müxtəlif yaradıcı balet təfsirləri gözləyir.

**2.3. – Arif Məlikovun "Məhəbbət əfsanəsi" baletində sənətlərin sintezi.** Görkəmli türk dramaturqu Nazim Hikmətin ssenarisi üzrə Arif Məlikovun musiqisinə yazılmış, Yuri Qriqoroviçin S.Virsaladzenin tərtibatında səhnələşdirdiyi dahi Azərbaycan baleti (1961, Leninqrad, Kirov adına teatr, 1962, Azərbaycan Dövlət Opera və balet teatrı) sovet baletinin sonrakı keçid dövrünə aiddir. Bu zaman teatr səhnələrində simfonik baletlər gedirdi. Dərhal 1962-ci ildə o, Azərbaycan səhnəsinə köçürülürdü. Bu balet dünya balet sənətində mühüm bir hadisə oldu. Tədqiqatçının rəyinə görə, nə psixoloji toqquşmaların, nə musiqili muğam səciyyələrinin və musiqili dramaturgiya üsullarının dərinliyinə, nə baletmeysterin "şərqi-miniatür" plastik dilinin yeniliyinə, nə "şərqi-miniatür" səhnə tərtibatı sahəsində yaradıcı kəşflərə, nə də dünya səhnəsində parlaq ifa təfsiri analoqlarına görə onun tayı-bərabəri yoxdur, belə ki, müəlliflərin ümumi ideyası, vahid konsepsiyası, intuitiv-intellektual ahəngdar yaradıcılıq vəhdəti tamaşanın canına hopmuşdur.

Bəstəkarın "şərq hekayəsi" musiqisinin yığcam-emosional stilistikasının "arxitektonikası" baletin semantikasına ciddi nəzarət tətbiq etmişdir: orta əsr Azərbaycan miniatür sənətindən qaynaqlanan S.Virsaladze kostyumları və dahiyanə tapılmış səhnə tərtibatı, mövzu, hisslər, fikirlər axını gətirən "şərq qəzəllərinin şairanə sətirlərinin bir-birini əvəz etməsinə bənzər" J.Qriqoroviç xoreoqrafiyası öz mənbəyini buradan

götürür. Simfonik cəhətdən inkişaf etmiş təzadlı nömrələrin – bir-biri ilə mövzu və ton cəhətdən bağlı olan epizodların bir-birini əvəz etməsi musiqili-dramaturji əhvalatın mühüm nöqtələridir. Iri plan, daxili monoloqlar vaxtı artıraraq, kinodramaturgiya üsulları ilə assosiasiya yaradır. Bəstəkarın arxitektonik üsulu – baletin intermediyalarla – Məhmənə Banu, Şirin və Fərhadın səmimi duyğularının psixoloji trioları ilə dayandırılması çox maraqlıdır. Bəstəkar A.Məlikovun baletin gedişatını dayandıran dahiyanə monoloq-trioları (bu, həm ritm, həm bölgü, dramaturji gərginliyin aradan qaldırılması, əsas qəhrəmanların daxili prixoloji məkanının yaradılması – sanki daxildən rakurs) – bəstəkarın heyrətamiz yeniliyi tamaşanın 4-cü ölçüsünü yaradır. Yaranan konsepsiyadan istifadə edən və onu inkişaf etdirən bu balet tamaşasında dramaturji, xoreoqrafik üfüqləri məharətlə açır və tərtibatçı rəssam isə vizual və psixoloji planlar arasındakı əlaqəni pozur. Şübhəsiz ki, bütün bu hisslərin emosional palitrası A.Məlikovun muğamın simfonik leytmotivlərlə sintezi üzərində qurulan musiqisinə əsaslanır. A.Məlikov Məhmənə Banu obrazının leytmotivi kimi "Humayun" muğamını götürmüş, 2-ci pərdənin adajiosunda alovlu məhəbbəti "Çahargah" məqamı ilə ifadə etmişdir.

Şübhəsiz ki, "Məhəbbət əfsanəsi" baletinin səhnə tərtibatının S.Virsaladze tərəfindən gah açılan, gah yığılan, gah fərəhlə bərq vuran, gah da səssizcəsinə işıldayan qədim kitabın üç səhifəsi (üç qəhrəman, arakəsmənin üç tayı) kimi qavranılması öz yığcam ifadəliliyi ilə bütün baletin kamertonudur. O, rəqs üçün dinamik məkan yaratmışdır. Rəssamın konseptual baxışı aktyor kostyumunun inteqrativ bədii obrazını yaratmışdır. Onun kostyumları – səhnədə "rəqs edən boyakarlıq" 20-ci əsrin əvvəllərinin Dyagilev "rusları" teatr rəssamlarının – L.Baks, A.Benua, N.Rerix və b. bədii kəşflərinin yenilikçi inkişafıdır.

Y.Qriqoroviçin "Məhəbbət əfsanəsi" baleti hər şeyə üstün gələn, fədakar məhəbbətin himnidir. Hər şeyi unutduran bu ehtiras bağları elə sıx dolaşmişdır ki, onların ucları salnamənin dərinliyində yox olmuşdur. Məhəbbətdə fədakarlıq – baletin ilk və son situasiyalarıdır. Baletin süjet dolaşıqlığı, ehtirasların əxlaqi-psixoloji qızışması qədim yunan faciələri səviyyəsinə qalxır.

**2.4. – F.Əmirovun "Min bir gecə" baletində sənətlərin sintez xüsusiyyətləri.** Bu paraqrafda F.Əmirovun "Min bir gecə" baletinin tamaşası nəzərdən keçirilir (ilk tamaşa 1979-cu ildə Bakıda baş tutmuş, librettosu R. və M.İbrahimbəyovların, N.Nəzirovanın, baletmeysteri N.Nəzirova, rəssamı T.Nərimanbəyov, kostyum üzrə rəssamı T.Tahirovdur). Bu füsunkar balet də dünya balet teatrında mühüm hadisə

olmuşdur. ədəbi mənbələrdə qeyd olunur ki, həkim və səyyah Sindbadın tərtib etdiyi və yazdığı nağıllar bir çox Şərq ölkələrinin, o cümlədən "İpək yolunun" mərkəzində yerləşən Azərbaycanın folklorunu özündə ehtiva etmişdir. Bu nağıl motivlərinə biz Nizamidə və başqa şairlərdə rast gəlirik və Şərqin fəlsəfi müdrikliyi burada ondan ibarətdir ki, ağzın şah Şəhriyarı ram edən ağıllı Şəhrizad barədə ibrətamiz hekayə vasitəsilə zəngin Şərq dünyasının çoxlu süjetləri verilmişdir.

Yuxarıda adları çəkilən Azərbaycan baletləri kimi bu balet də muğamın əsaslarını, Azərbaycan və klassik rəqsin sintezini, "səhnə tərtibatının milli əsasını" və s. daşıyıcısıdır. Məlum olduğu kimi, F.Əmirov yeni musiqi janrının – simfonik muğamın yaradıcısıdır. Onun baletinin muğam əsası "Şərq bazarı" şəklinin "Şur" məqamı vasitəsilə təsviri, məhəbbət və Şəhrizad mövzusu, "Mərcanə və 40 quldur" şəklinin "Çahargah" məqamı vasitəsilə təsviri və s. milli musiqi alətləri – tar, kamança, zərb alətləri, xanəndənin səsi ("məhəbbət" mövzusu kimi meydana gələn qadın vokalı), məqam-intonasiya düzümü valehedici bir musiqi yaratmışdır. Ssenari dahiyanə həll olunmuşdur – bütün tamaşa quruluşca aydın ifadə olunmuş səhnə - şəkillərə bölünmüşdür. Xoreoqraf N.Nəzirova tərəfindən klassik xoreoqrafik plastikaya ərəb və Azərbaycan folklor rəqs elementlərinin əlavə olunması, şərqlilərə tanış olan səciyyəvi mimika və jestlərdən istifadə edilməsi tamaşa qəhramanlarının çoxsaylı təkrarolunmaz obrazlarını yaratmışdır. T.Nərimanbəyovun coşqun, emosional rəng qamması tamaşanın bütün balet konstruksiyasının "başlıca nöqtələrini" gücləndirir. Bütün bunlar teatr dünyası üçün bir kəşf olan təkrarolunmaz bir aləm yaratmışdır.

Bu balet tam uğura "məhkum idi", belə ki, "Min bir gecə" nağıllarının təmtəraqlı süjeti kəskin-səciyyəvi epizodların yığcam mozaikasına bürünmüş, vahid süjet xətti ilə birləşmiş, effektli "səciyyəvi" xoreoqrafik plastika dolğun dəbdəbəli səhnə tərtibatı, kostyumların – obrazların "canlı boyakarlığı", yüksək ifa sənəti və s. baletin şah əsərinin meydana gəlməsinə gözəl şərait yaratmışdı. Balet həm Bakı, həm də dünyanın ən yaxçı balet səhnələrində daim uğurla tamaşaya qoyulur.

**Üçüncü fəsil - Azərbaycan baletləri sintetik vəhdət kimi** Ə.Bədəlbəylinin ilk Azərbaycan baleti "Qız qalası" Şərqdə birinci klassik balet tamaşası oldu və Sovet İttifaqı respublikalarında, həm də Şərq ölkələrində sonra yaranan milli baletlər üçün ssenari, rejissor işi, xoreoqrafiya, səhnə tərtibatı və s. cəhətdən sintezləşdirilmiş həll üçün nümunə oldu. Q.Qarayevin "Yeddi gözəl" baleti tükənməz yaradıcılıq imkanlarına malikdir, belə ki, Nizami poemalarının hədsiz fəlsəfəsi həyatın

mənasının dərkində dərin sirrləri, Qara Qarayev musiqisi isə xoreoqrafik fantaziyaların zəngin mənbəyini özündə ehtiva edir. Balet dünyanın ən yaxşı səhnələrində dəfələrlə tamaşaya qoyulmuşdur, ancaq təəssüf ki, onların çoxu ilə bizim tanış olmaq imkanımız yoxdur. A.Məlikovun “Məhəbbət əfsanəsi” baleti, bəstəkarın sözlərinə görə, dünyanın ən yaxşı teatrlarında tamamilə fərqli, qəfil təfsirli, təzadlı həllə malik 60-dan artıq quruluş verilmişdir. Ancaq tədqiqatçının rəyinə görə, Nazim Hikmətin ölməz poemasının ilk tamaşasından daha dərin, klassik cəhətdən tapılmış, psixoloji, estetik, xoreoqrafik, vizual cəhətdən nəfis – intellektual təcəssümü bir daha olmayacaq, çünki baletin bu quruluşunun dahiyanəliyi xırda psixoloji-intellektual bəndlər üzərində qurulmuşdur. Bu struktur o qədər mükəmməldir ki, başqa bir variant, dissertantın rəyincə, mümkün deyil. F.Əmirovun bütün orta əsr şərq dünyasının fəlsəfə, estetika, məişət və adətlərini, xarakter və atmosferini, yumor və intriqasını, rayihə və cazibəsini təcəssüm etdirən əsrarəngiz “Min bir gecə” baleti ahəngdar rejissor, xoreoqrafik və səhnə tərtibatı həllinə, qəhrəman obrazlarının gözəl ifa materialına malikdir. Bu balet tamaşası həm Avropa, həm də Şərq səhnəsində arzuolunandır – onun daxili aləmi parlaq və cəzbedicidir. Onun quruluş həlli o qədər biçimli və aydındır ki, başqa balet süjetlərinin fərqli variantları üçün gözəl imkanlar yaradır. Adları çəkilən bütün bu baletlər Niyazinin “Rast” (baletmeysteri Tamilla Şirəliyevadır), Polad Bülbüloğlunun “Eşq və Ölüm” (baletmeysteri Vəkil Usmanovdur) kimi sonrakı Azərbaycan baletlərinin yaradılmasında nəinki böyük rol oynamış, həm də keçmiş Sovet İttifaqının, Şərq ölkələrinin (Misir, İraq və s.) və Qərbin balet teatrlarının tamaşalarına təsir etmişdir.

**Nəticə** - Dissertasiya işində şərh edilmiş müddəa və nəticələri ümumiləşdirərək, aşağıdakıları qeyd etməliyik:

- Azərbaycan balet teatrı qədim dövrlərdən, orta əsrlərdən başlayaraq bayramlar, şəbiblər, ayinlər, ecazkar mərasimlər, adətlər kimi zəngin mənbələrə malikdir, onlardan bəziləri bugünə qədər mövcuddur;
- 19-cu əsrin sonu – 20-ci əsrin əvvəllərində Azərbycanda milli professional teatrın – dram, opera, sonralar isə baletin meydana gəlməsi üçün əlverişli şərait yarandı;
- 1940-cı ildə yalnız Azərbaycanda deyil, bütün Şərqdə ilk milli balet – Əfrasiyab Bədəlbəylinin “Qız qalası” baleti tamaşaya qoyuldu. Bu baletdə sənətlərin sintezi elə ahəngdar, elə uğurlu idi ki, bu balet indiyə qədər Azərbaycan Dövlət Opera və Balet teatrının səhnəsində gedir, yalnız Azərbaycanda deyil, Sovet İttifaqının respublikalarında, Yaxın Şərq ölkələrində səhnələşdirilən sonrakı balet tamaşalarına böyük təsir etmişdir;

- Azərbaycanın balet tamaşaları arasında yalnız Azərbaycanda deyil, dünya balet teatrında mühüm hadisə olan baletlər var. Onlar dünyanın ən yaxşı balet səhnələrində gedir, çoxlu redaksiyaları var və dünya balet sənətinin inkişafına təsir etmişlər. Bunlar Q.Qarayevin "Yeddi gözəl", A.Məlikovun "Məhəbbət əfsanəsi", F.Əmirovun "Min bir gecə" baletləridir. Bu baletlərdə formalaşan sənətlər sintezini təhlil edərək, dissertant bu baletlərin yaradıcılıq uğurları üçün obyektiv şərait yaradan müəyyən qanunauyğunlara, sxem və nəticələrə gəlir;
- Tədqiqat nəticəsində alınmış yuxarıda göstərilən müddəa və yekunlar yalnız nəzəri cəhətdən balet tarixini Bakı Xoreoqrafiya məktəbində, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Xoreoqrafiya" kafedrasında tədris olunmaq üçün deyil, həm də librettoçu, bəstəkar, baletmeyster, teatr rəssamları, ifaçıların və s. praktik fəaliyyətində istifadə oluna bilər. Dissertant Azərbaycanın görkəmli baletlərinə layiqli qiymət verməyi və dünya balet teatrı tarixində onların yerini aydınlaşdırmağı vacib hesab edir.

**Dissertasiya mövzusuna dair aşağıdakı məqalələr çap olunmuşdur:**

1. Истоки и становление сценографии азербайджанского балетного спектакля. // İncəsənət və mədəniyyət problemləri 1(19) Bakı: «Təknur», Memarlıq və İncəsənət İnstitutu, 2007, c.115-119 (212c.).

2.Первый азербайджанский балетный спектакль «Девичья башня» Афрасияба Бадалбейли как синтез театрального искусства.// İncəsənət və mədəniyyət problemləri 4(22) Bakı: «Səda», Memarlıq və İncəsənət İnstitutu, 2007, c.204-207 (243c.)

3. Традиции азербайджанского балетного искусства в творчестве балетмейстера Тамилы Ширалиевой.//İncəsənət və mədəniyyət problemləri 1(23) Bakı: «Təknur», Memarlıq və İncəsənət İnstitutu, 2008, c.202-205 (220c.)

4. Мугам в азербайджанском балетном спектакле. // Материалы Международного научного симпозиума «Мир мугама» Баку: « Şərq-Qərb»-2009, c.187-191 (472c.).

5. Жест как семантическая основа национальной специфики.// Mügayisəli sənətşünaslıq. Görkəmli alim, sənətşünaslıq doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Kərim Kərimovun əziz xatirəsinə həsr olunur- Bakı: «Elm» nəşriyyatı, 2011, c.168-180 (212c.).

6. Узеир Гаджибеков и становление азербайджанского балетного спектакля.// Üzeyir Hacıbəylinin 90 illik yubileylərinə həsr olunmuş respublika elmi-praktik konfransının materialları- Bakı: Mütərcim-2011, с.356-364 (408с.).

7. Танец в изображении средневековой восточной миниатюры. // Историография и источниковедение средневекового Востока. Материалы международного научного симпозиума, посвященного 90-летию действительного члена Национальной Академии Наук Азербайджана, Героя Советского Союза Зии Муса оглы Буниятова, Баку: «Элм»-2012, тезисы, с.99 (440 с.).

8. Роль художника в синтезе искусств балетного спектакля (на примере творчества заслуженного художника Азербайджана Таира Таирова).// "Современные проблемы гуманитарных и естественных наук" Материалы 8 Международной Научно - практической конференции 21-22 декабря 2012 г. Том 2. Москва, Институт Стратегических Исследований, 2012, с.284-291 (400с.).

9. Азербайджанский дястгях: аспекты сравнения.// Материалы Международного научного симпозиума «Мир мугама» Баку: « Şərq-Qərb»- март, 2013.

10. Генезис рождения азербайджанского профессионального балетного театра.// "San'at",1(58), журнал Академии Художеств Узбекистана, ДП "Niso poligraf", Ташкент, 2013, с.35-37 (45с.).

**Huseinova A.B.**

## Synthesis of arts in Azerbaijan balet performances

### SUMMARY

The theme is dedicated to urgent, perspective and interesting sphere of modern science – music, libretto, choreography, scenography, costume, performing, volal and recitative used in the creation of Azerbaijan ballet performances on the example of such prominent ballets as “Seven Beauties” by G.Garayev (1952 – Baku, 1953 – Leningrad); “Love Legend” by A.Malikov (1961 – Leningrad, 1962 – Baku); “The Thousand and One Night” by F.Amirov (1979 – Baku). These ballets were performed on the best ballet stages of the world: repeatedly on the stage of the Big Theatre in Moscow, in the theatre of opera and ballet of Leningrad, in many cities of the former Soviet Union, as well as on the best world stages of the USA, Czechoslovakia, GDR, Yugoslaviya, Turkey, Egypt, Iran etc. They have numerous original performances and wordings. The interrelation of arts in ballet theatre is characterized by striving to integration of close kinds of art in a single whole. It makes us possible to consider the ballet from the point of view of synthesis of spatial-temporal and visual-acoustic kinds of arts. Being a professional choreographer and artist we have tried to consider the Azerbaijan professional ballet performance (its most significant and worthy performances) from the point of view of its genesis, revealing of sources of inner mental vibration having influenced upon the formation of creative essence of Azerbaijan art, aspects of interrelation, mutual influence and synthesis of scenario dramaturgy, music, choreography, scenography (rituals, costumes, national plastics, mental psycho-genetic codification etc) – the whole many-voiced palette of its components. The author of the thesis has tried to reveal which creative stores were used and revealed by co-authors of these ballet performances, their interaction in the synthesis of such a complicated organism as a ballet performance, mechanism of its creation. No doubt, harmonious synthesis of arts takes place when the performance is full of common idea, single conception, intutive-intellectual harmonious creative unity of co-authors.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
УНИВЕРСИТЕТ КУЛЬТУРЫ И ИСКУССТВ**

*На правах рукописи*

**ГУСЕЙНОВА АФАГ БЕЮК АГА гызы**

# СИНТЕЗ ИСКУССТВ В АЗЕРБАЙДЖАНСКОМ БАЛЕТНОМ СПЕКТАКЛЕ

**6203.01 – Теория, анализ и критика искусства**

**АВТОРЕФЕРАТ**

**диссертации на соискание ученой степени доктора философии
(по искусствоведению)**

**БАКУ- 2013**